**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

---

**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

---

*Əlyazması hüququnda*

**ƏLİYEVA AYGÜN HÜSEYNƏLİ QIZI**

# AZƏRBAYCAN RESPUBLİKASINDA ƏRZAQ BAZARININ TRANSFORMASİYA PROBLEMLƏRİ

**5312.01 – "Sahə iqtisadiyyatı"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**GƏNCƏ – 2013**

Dissertasiya isi Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad üzrə emlər doktoru, professor
**Rəsul Ənvər oğlu Balayev**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru
**Natiq Əli oğlu Cavadov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Əlöysət Əsgər oğlu Əsgərov**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu**

Müdafiə «27» sentyabr 2013-ci il saat $15^{30}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi, 64. 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat «10» avqust 2013-ci ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **V.T.Əmrahov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Müasir dövrdə ölkənin ərzaq bazarı transformasiya yönümlü dəyişikliklərin təsiri altında formalaşmaqdadır. Ərzaq bazarı mahiyyət etibarilə əhalinin yeyinti məhsullarına olan tələbatının ödənilməsinə xidmət etməklə tələb və təklif əsasında fəaliyyət göstərir, istehsalçı və istehlakçı arasındakı iqtisadi münasibətləri əhatə edir. Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının baçlıca şərtidir. Bu məsələ müasir dövr üçün də öz aktuallığını itirməmiş, əksinə, daha böyük aktuallıq kəsb etmişdir.

Son bir neçə ildə dünyada enerji daşıyıcılarının qiymətinin yüksəlməsi, aparıcı ölkələrin maliyyə bazarında baş verən neqativ meyillər, habelə əhalinin sayının artması nəticəsində ərzaq məhsullarına olan tələbatın yüksəlməsi, iqlim dəyişkənliyi, su ehtiyatlarının məhdudluğu və digər səbəblərə görə əsas ərzaq məhsullarının dünya bazarında qiymətləri artmağa başlamış, bəzi ölkələrdə ərzaq qıtlığı real təhlükəyə çevrilmişdir.

Ölkədə əsas ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına tam təminatı hələ ki, mümkün olmamışdır. Digər tərəfdən, dünya ərzaq bazarında müşahidə olunan qeyri-sabitlik Azərbaycanda da ərzaq məhsullarının qiymətinə öz təsirini göstərir. Mövcud vəziyyət daxili ərzaq bazarının idxaldan asılılığının maksimum azaldılması və ərzaq ehtiyatlarının yaradılması məsələsinə kompleks yanaşma tələb edir.

BMT-nin hesablamalarına əsasən, əgər 2008-ci ildə dünyada 6,7 milyard nəfər yaşayırdısa, 2025-ci ilədək dünya əhalisinin sayının 8 milyard nəfərə, 2050-ci ildə 9,2 milyard nəfərə çatacağı gözlənilir. Bu artımın qarşılığında əkin sahələri getdikcə azalır. Ərzaq məhsullarına tələbatın artım tempi ilə mövcud istehsal resursları arasında yaranan kəskin disparitetlik artan dünya əhalisinin ərzaq təminatında bir sıra problemlər vəd edir. Bundan əlavə, tələbatın artım tempi istehlak bazarında keyfiyyətsiz, insan sağlamlığı üçün təhlükə yarada biləcək ərzaq məhsullarının yer almasına da şərait yaradır.

Ümumiyyətlə ərzaq bazarında inteqrasiya münasibətlərinin inkişafı, sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi, ərzaq məhsullarının emalı, saxlanılması, çeşidlənməsi və satışının elmi əsaslarla təşkili, bazar infrastrukturunun mütərəqqi formalarının tətbiqi məsələlərinin araşdırılmasına böyük ehtiyac var. Ərzaq bazarının tədqiqatı sahəsində innovasiya prosesi iqtisadi və texniki ideyaların yeni texnologiyaya çevrilməsinin daimi və fasiləsiz axınından və keyfiyyətcə yeni məhsul alınması məqsədi ilə onlardan bilavasitə istehsalatda istifadə edilməsinə çatdırmaqdan ibarətdir. Ərzaq bazarına tətbiq olunan innovasiya proseslərinin təşkilati-iqtisadi mahiyyəti, onların nizamlanması metodları daha da təkmilləşdirilməlidir.



Bazar münasibətlərinin formalaşması və inkişafının müasir mərhələsində islahatların nəticələri qiymətləndirilməklə ərzaq bazarının transformasiyası problemləri təxirə salınmadan həll edilməli, ərzaq ticarətinin mövcud vəziyyəti və inkişaf meylləri qiymətləndirilməli, ərzaq bazarının tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri araşdırılmalıdır. Bütün bu məsələlərin həlli öyrəndiyimiz problemə yeni baxışlar, yeni yanaşmalar tələb edir.

Qeyd olunan və digər məqamlar təqdim olunan dissertasiya işinin aktual mövzuya həsr olunduğunu söyləməyə imkan verir.

**Problemin öyrənilmə vəziyyəti.** Azərbaycan Respublikasında ərzaq bazarının transformasiya problemləri, ərzaq bazarının inkişafı, inteqrasiya məsələləri bir çox iqtisadçı alimlər tərəfindən tədqiq edilmiş, nəzəri və təcrübi əhəmiyyət kəsb edən təklif və tövsiyələr hazırlanmışdır. Səmədzadə Z.Ə., Nadirov A.A., Salahov S.V., Ələsgərov A.K., Alıyev İ.H., Balayev R.Ə., Fərzəliyev M.M., İbrahimov İ.H., Əhmədov İ.V., Ataşov B.X., Əhmədov A.T., Niftullayev V.M., Verdiyev Ə.Ç., Xəlilov H.A., Cavadov N.Ə., Abbasov A.F., Şutkov A.A., Qordıyev A.V., Alekseyev V.V., Morozov T.Q. və başqaları bu istiqamətdə müxtəlif məsələlərə toxunaraq dəyərli fikirlərini söyləmişlər. Tədqiqat işi yerinə yetirilərkən həm respublika, həm də xarici ölkə alimlərinin əsərlərindən istifadə olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi ölkəmizdə və xaricdə aparılan tədqiqatların ərzaq bazarının transformasiyasının nəzəri-metodoloji əsaslarına dair nəticələrin sistemləşdirilməsindən, onların həyata keçirilməsinin səmərəli mexanizminin işlənib hazırlanmasından, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi və ərzaq bazarının tənzimlənməsi üçün əsaslandırılmış təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı əsas vəzifələr qarşıya qoyulmuşdur:

- Azərbaycan Respublikasında ərzaq bazarının tədqiqinin mahiyyətinin açıqlanması və əsas nəzəri-metodoloji məsələlərin tədqiqi;
- postsovet məkanı və dünya ölkələrində ərzaq bazarının inkişaf xüsusiyyətlərinin araşdırılması;
- Azərbaycanda əhalinin ərzaq məhsulları ilə təminatının etibarlılıq səviyyəsinin yüksəldilməsi yollarının müəyyən edilməsi;
- ərzaq bazarının problemlərinin araşdırılması;
- ərzaq ticarətinin mövcud vəziyyəti və inkişaf meyllərinin qiymətləndirilməsi;

- ərzaq bazarının tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərinin araşdırılması;

- ərzaq altkomplekslərinin inkişaf prioritetlərinin müəyyən edilməsi;

- ərzaq bazarının parametrlərinin proqnozlaşdırılması;

- Azərbaycan Respublikasında ərzaq bazarının səmərəli transformasiyasına dair təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqatın obyekti** Azərbaycan Respublikasının ərzaq bazarı və onun subyektləridir.

**Tədqiqatın predmeti** rəqabətqabiliyyətli ərzaq məhsullarının istehsalının səmərəliliyi və ərzaq bazarının fəaliyyəti prosesində yaranan real iqtisadi münasibətlərdir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Respublikamızın və xarici ölkələrin iqtisadçı alimlərinin aqrar sahənin, o cümlədən keyfiyyətli ərzaq məhsullarının istehsalı, emalı və istehlakçıya çatdırılması sisteminin müasir vəziyyətinə dair əsərləri, Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları, Milli Məclisin qəbul etdiyi qanunlar, Nazirlər Kabinetinin qərar və sərəncamları tədqiqatın nəzəri əsası kimi götürülmüşdür. Tədqiqatın metodoloji əsasını bazar iqtisadiyyatı şəraitində istehsal, emal və ticarət müəssisələri arasında inteqrasiya əlaqələrini tənzimləyən Azərbaycan hökumətinin rəsmi sənədləri, beynəlxalq əməkdaşlığa dair bağlanmış sazişlərin müddəaları təşkil edir. Ərzaq bazarının fəaliyyətinin metodoloji əsasları araşdırılmış, tədqiqat prosesində müşahidə, müqayisə, iqtisadi-statistik təhlil və s. üsullardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya mənbəyini** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Kənd Təsərrüfatı, İqtisadi İnkişaf və Maliyyə Nazirliklərinin, müvafiq elmi-tədqiqat institutlarının, xüsusilə Az. ETKTİ və Tİ-nun materialları və qlobal informasiya şəbəkəsindəki məlumatlar təşkil edir.

**Tədqiqatın elmi yeniliyi:**

- Azərbaycan Respublikasında ərzaq bazarının transformasiya proseslərinin mahiyyəti açıqlanmış, əsas nəzəri-metodoloji müddəalar müəyyən edilmişdir;

- əhalinin ərzaq məhsulları ilə təminatının etibarlılıq səviyyəsinin yüksəldilməsi imkanları müəyyən edilmişdir;

- transformasiya şəraitində ərzaq ticarətinin inkişaf meylləri müəyyənləşdirilmişdir;

- ərzaq bazarının tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir;

- ərzaq altkomplekslərinin inkişaf prioritetləri əsaslandırılmışdır;

- transformasiya dövrünün xüsusiyyətləri nəzərə alınmaqla ərzaq bazarının perspektiv parametrləri müəyyənləşdirilmişdir;

- Azərbaycan Respublikasında ərzaq bazarının transformasiya problemlərinin həllinə dair təklif və tövsiyələr hazırlanmışdır.

**Tədqiqat işinin təcrübi əhəmiyyəti.** Tədqiqat nəticəsində irəli sürülən təklif və tövsiyələrdən əhalinin keyfiyyətli ərzaq məhsulları ilə etibarlı təminatı üçün bazar iqtisadiyyatı şəraitində ərzaq məhsullarının istehsalı, emalı, saxlanılması və ərzaq bazarında reallaşdırılmasının səmərəli təşkili istiqamətində hazırlanan tədbir və layihələrdə istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadəsi:** Dissertasiya işinin əsas müddəaları müxtəlif elmi konfrans və seminarlarda məruzə edilmişdir. O cümlədən AETKTİ və Tİ-da keçirilmiş "Azərbaycan Respublikası əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatının iqtisadi problemləri" mövzusunda respublika elmi-praktik konfransın materiallarında (Bakı-2009), AMEA-da keçirilmiş "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri. Respublika elmi-praktik konfransın materiallarında (Bakı 2010), AMEA Elmi İnnovasiyalar Mərkəzində keçirilmiş Beynəlxalq elmi-praktik konfransın materiallarında, Az. ETKTİ və Tİ-nun 50 illik yubileyinə həsr olunmuş "Aqrar iqtisadiyyatın aktual problemləri " mövzusunda Beynəlxalq elmi-praktik konfransın materiallarında (Bakı-2012) və s. öz əksini tapmışdır.

Tədqiqat nəticəsində hazırlanmış bir sıra təklif və tövsiyələr Quba Rayonu İcra Hakimiyyətinin «Sosial-iqtisadi məsələlər» şöbəsi (Arayış № 869/3 16.06. 2010) və Masallı " NUR-M" MMC tərəfindən istifadə üçün qəbul olunmuşdur (Arayış № 82, 11.09.2010).

**Dissertasiya işinin həcmi və quruluşu:** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş 141 ədəbiyyat siyahısından ibarətdir. İş 154 səhifə kompüter yazısı həcmindədir. Tədqiqat işində 29 cədvəl və 12 şəkil verilmişdir.

## İŞİN ƏSAS MƏZMUNU

Müvafiq tələblər səviyyəsində işlənib hazırlanmış dissertasiya işinin **giriş hissəsində** mövzunun aktuallığı kifayət qədər əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi obyektiv qiymətləndirilmiş, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, nəzəri-metodoloji əsasları, informasiya bazası, elmi yeniliyi və təcrübi əhəmiyyəti lakonik şəkildə ifadə edilmişdir.

Birinci fəsil **"Müasir mərhələdə ərzaq bazarının transformasiyasının əsasları"** adlanır. Burada ərzaq bazarının tədqiqinin nəzəri metodoloji



əsasları, potsovet məkanı ölkələrində ərzaq bazarının inkişaf xüsusiyyətləri, dünya ərzaq bazarı və onun inkişaf xüsusiyyətləri geniş şərh olunur.

Ərzaq bazarı ümumi bazar sisteminin tərkib hissəsi olub, tələb və təklif amillərinin təsiri altında formalaşır, istehsal və istehlak təyinatlı ərzaq malları bazarı ilə təmsil olunur və şübhəsiz, üstünlüklərə malikdir: satıcıların və alıcıların maraqlarını birləşdirir; istehlakçıları tələb vasitəsilə ifadə olunan tələbatlarının ödənilməsinə maraqlandırır; malların istehsalında və tədavülündə inhisarçılığa mane olur; iqtisadiyyatı mal qıtlığından azad edir; sahibkarlıq fəaliyyəti subyektlərinin imkanlarını genişləndirir; iqtisadiyyatın problemlərini səmərəli həll edir.

Dissertasiya işində ərzaq bazarının və ərzaq ticarətinin kompleks tədqiqatı əks etdirilmişdir. Ərzaq bazarının tədqiqində əsas şərt ərzaq bazarı ilə ticarətin optimal münasibətlərini tapmaqdan və kompleks təhlilindən ibarətdir. Ərzaq bazarının əsas yarımsistemlərinə - ticarət fəaliyyəti subyektləri tərəfindən ərzaq malları təklifi; alıcılar tərəfindən ərzaq mallarına tələb; ərzaq malları istehlakçıları; ərzaq malları istehsalçıları; ərzaq malları xidmətləri bazarı; pul-kredit sistemi aid edilmişdir. Bütün bunlar belə ümumiləşdirilmiş nəticəyə gəlməyə əsas verir ki, ərzaq bazarının nəzəri tədqiqatlarının aparılmasına kompleks, sistemli yanaşmaq lazımdır.

Ərzaq bazarı daxili bazarın tərkib hissəsi olmaqla aqrar iqtisadiyyatın ən mühüm subyektləri kimi kənd təsərrüfatı məhsullarının istehsalçıları və istehlakçıları arasındakı iqtisadi münasibətlərin məcmusunu özündə əks etdirir. Azərbaycanda aqrar bazarın formalaşması və ərzaq məhsullarının ekoloji-keyfiyyət kompleksinin cografi, ekoloji, texniki, sosioloji parametrlərinin tədqiq olunması müasir dövrün konseptual problemlərindən sayılır.

Hazırda cəmiyyətdə gedən urbanizasiya göstərir ki, 21-ci yüzillikdə dünya ərzaq resurslarının lazımi həcmdə artırılması biotexnologiyalardan istifadə etmədən mümkün deyil. Ərzaq bazarında məhsuldarlığın artırılması məqsədilə gen mühəndisliyi və genetik cəhətdən modifikasiya olunmuş mikroorqanizmlərdən, müxtəlif kimyəvi preparatlardan, qida əlavələrindən, əvəzedicilərdən və s. istifadə hazırda geniş yayılmışdır. Ənənəvi kənd təsərrüfatı bitkilərinin, heyvanların və quşların genetik modifikasiyası onlara insanlar tərəfindən aşılanan yeni xüsusiyyətlər verir. Təbii ki, bu vasitələr və elmi-texniki nailiyyətlər istehsal həcminin artırılmasında mühüm rol oynamaqla yanaşı, bəzən düzgün istifadə edilmədikdə qida sağlamlığı üçün müəyyən təhlükələr yaradır. Təhlükələrin aradan qaldırılması məqsədilə genetik modifikasiya edilmiş toxumların, ərzaq məhsullarının ölkəmizə idxalının qarşısının alınması və sanksiya tətbiq edilməsi, bu sahədə labora-

toriyaların təşkili və onları işlətmək üçün mütəxəssislərin yetişdirilməsi kimi müəyyən tədbirlərin həyata keçirilməsi çox önəmlidir.

Araşdırmalardan aydın olur ki, hazırda dünyada qida təhlükəsizliyinin idarəedilməsi üçün ən çox istifadə olunan sistem HACCP (Təhlükəli Faktorların Analizi və Kritik Nəzarət Nöqtələri) sistemidir və bu, qida təhlükəsizliyinin idarəedilməsi üçün mühüm əhəmiyyət kəsb edən, təhlükəli faktorların identifikasiyası, qiymətləndirilməsi və onlara nəzarət mexanizmidir.

Codex Alimentarius Komissiyası qida təhlükəsizliyi sahəsində dünyanın ən mötəbər təşkilatıdır. Bu komissiyanın standartları və qaydaları bütün dünyada istifadə olunur. Codex Alimentarius (və yaxud Ərzaq Kodeksi) Komissiyası BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ilə Ümumdünya Səhiyyə Təşkilatının birgə təsis etdiyi komissiyadır. Bu komissiyanın Əsası 1961-ci ildə qoyulmuş, onun əsas məqsədi ərzaq məhsullarına dair beynəlxalq statuslu standartların və qida təhlükəsizliyinə dair qaydaların hazırlanıb qəbul edilməsindən, bununla da qlobal ticarət şəbəkəsində ərzaq məhsulları ilə vicdanlı ticarətə şəraitin yaradılmasından ibarətdir.

İkinci fəsil **“Azərbaycan Respublikasının ərzaq bazarının mövcud vəziyyətinin təhlili və inkisaf imkanlarının qiymətləndirilməsi”** adlanır. Dissertasiya işində Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə təminatının etibarlılıq səviyyəsi, ərzaq bazarının problemləri iqtisadi və ekoloji aspektdən araşdırılır və ərzaq ticarətinin mövcud vəziyyəti və inkişaf meylləri təhliledilir.

Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının baçlıca şərtidir. Ölkəmizdə əhalinin zəruri ərzaq məhsulları ilə təmin edilməsi dövlətin iqtisadi siyasətində mərkəzi yer tutur. Möhtərəm prezident İlham Əliyev strateji məhsulların Azərbaycanda istehsal olunması zərurətini dəfələrlə vurğulamışdır: “Biz elə etməliyik ki, Azərbaycan maksimum dərəcədə özünü ərzaq məhsulları ilə təmin edə bilsin ”. Ona görə də cəmiyyətin hər bir üzvünün əsas ərzaq məhsullarına olan tələbatının tam ödənilməsi üçün davamlı olaraq müvafiq tədbirlərin həyata keçirilməsi çox vacibdir. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda aqrar bölmənin mövcud vəziyyəti ətraflı təhlil edilmişdir. Dövlət Proqramının əsas məqsədi ölkənin hər bir vətəndaşının sağlam və məhsuldar həyat tərzi üçün onun qəbul edilmiş normalara uyğun ərzaq məhsulları ilə tam təmin olunmasına nail olmaqdır. Bu məqsədə nail olmaq üçün Dövlət Proqramı çərçivəsində aşağıdakı



vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur: ölkədə ərzaq məhsulları istehsalını artırmaq; əhalini təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək; ərzaq təminatı sahəsində risklərin idarə olunmasını təmin etmək; sahibkarlıq mühitini yaxşılaşdırmaq və s.

Azərbaycan Respublikasında ərzaq məhsulları üzrə idxal və ixracın dinamikası aşağıdakı şəkildə göstərilmişdir (şəkil 1).

Azərbaycan Respublikasında idxal və ixracın əmtəə qrupları üzrə strukturuna nəzər salsaq aydın olur ki, 2011-ci ildə cəmi 9755,9 mln. ABŞ dolları məbləğində mal idxal, 26570,9 mln. ABŞ dolları məbləğində isə mal ixrac olunmuşdur. Hazırda respublika əhalisinin ərzaq məhsulları ilə təmin olunmasında daxili istehsalın rolu ilbəil artır, idxal olunan ərzaq məhsullarının xüsusi çəkisi isə azalır. Azərbaycan Respublikasına idxal olunan ərzaq məhsulları 2005-ci ilə nisbətən 2011-ci ildə 945,7 mln. ABŞ dolları məbləğində artaraq 447,4 mln.ABŞ dollardan 1393,1 mln. ABŞ dollara çatmışdır. Qrafikdən göründüyü kimi əgər 2005-ci ildə ərzaq məhsullarının idxalda xüsusi çəkisi 10,6 % təşkil etmişdirsə, bu göstərici 2006-cı ildə 10,5%-ə enmiş, 2007-ci ildə bu rəqəm artaraq 15,9 %-ə çatmışdır. 2008-ci ildə bu göstərici 0,1% azalaraq 15,8 %-ə enmişdir. 2011-ci ildə isə ərzaq məhsullarının idxalda xüsusi çəkisi 2005-ci ilə nisbətən 3,7% artaraq 10,6%-dən 14,3%-ə qalxmışdır. Ərzaq idxalının strukturunda ən yüksək xüsusi çəkini hazır ərzaq məhsulları, spirtli içkilər (6,8%) və bitki mənşəli məhsullar (5,3%) təşkil edir. Ərzaq idxalında heyvan və ya bitki mənşəli piylər və yağların xüsusi çəkisi müqayisə olunan dövrdə aşağı düşsə də, bu proses sabit xarakter daşımamışdır.




Şək.1. İdxal və ixracda ərzaq məhsullarının xüsusi çəkisi, faizlə.

Təhlil göstərir ki, 2011-ci ildə Azərbaycan Respublikasından digər ölkələrə 717,0 mln. ABŞ dolları məbləğində ərzaq məhsulları ixrac

olunmuşdur. İxrac olunan ərzaq məhsullarının tərkibində bitki mənşəli məhsullar üstünlüyə malik olaraq 268,8 mln.manat, daha az ixrac olunan diri heyvanlar və heyvan mənşəli məhsullar isə 0,6 mln.manat təşkil etmişdir. İxracın strukturunda da nəzərə çarpacaq dəyişikliklər müşahidə edilmişdir. Belə ki, ixracda ərzaq məhsullarının xüsusi çəkisi 2005-ci ildən 2011-ci ilədək sürətlə azalaraq 7,5%-dən 2,7%-dək azalmışdır.

Diri heyvanlar və heyvan mənşəli məhsulların xüsusi çəkisinin azalması müşahidə edilsə də, ərzaq məhsullarının, bitki mənşəli məhsulların, piylər, heyvan və bitki mənşəli yağların, hazır ərzaq məhsulları, spirtli içkilərin ərzaq ixracında xüsusi çəkisi müqayisə olunan dövrdə sürətlə yüksəlmişdir. Araşdırmalar göstərir ki, artıq Azərbaycanda istehsal olunan ərzaq məhsulları dünya bazarlarında rəqabət aparmaq qabiliyyəti qazanmış və ildən-ilə ərzaq məhsullarının xarici ölkələrə ixracı artmaqda davam edir. Bu baxımdan, yüksək rəqabət qabiiiyyətli ərzaq məhsullarının istehsalını artırmaq və daxili bazarın tələbatını yerli istehsal hesabına ödəmək lazımdır.

Kənd təsərrüfatında həyata keçirilən aqrar islahatlar öz müsbət nəticələrini vermiş, son 10 il ərzində bütün təsərrüfat kateqoriyalarında faktiki mövcud qiymətlərlə kənd təsərrüfatının ümumi məhsulu artmışdır. 2005-2011-ci illərdə kənd təsərrüfatının ümumi məhsulunun dinamikası cədvəl 1-də göstərilmişdir. Kənd təsərrüfatının ümumi məhsulunun strukturuna nəzər salsaq qeyd etmək olar ki, 2011-ci ildə bütün təsərrüfat kateqoriyaları üzrə ümumi məhsulun tərkibində bitkiçilik məhsulları 51,7%, heyvandarlıq məhsulları 48,3%, o cümlədən, kənd təsərrüfatı müəssisələri və sair təşkilatlar üzrə 5,2 %, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları üzrə 94,8% təşkil edir. Bitkiçilik məhsulları kənd təsərrüfatı müəssisələri və sair təşkilatlar üzrə 3,5%, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları üzrə 96,5 %, heyvandarlıq məhsulları isə kənd təsərrüfatı müəssisələri və sair təşkilatlar üzrə 7,0%, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları üzrə 93,0% təşkil edir.

Cədvəldəki göstəricilərə əsasən ümumi məhsulun dinamikasının təhlilindən görünür ki, 2011-ci ildə bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 2,5 dəfə artaraq 4525,2 mln. manat, bitkiçilik məhsullarının dəyəri 2,4 dəfə artaraq 2339,8 mln. man., heyvandarlıq məhsullarının dəyəri isə 2,6 dəfə artaraq 2185,4 mln. manata çatmışdır. Müqayisə olunan dövrdə kənd təsərrüfatı müəssisələrində də ümumi məhsulun həcminin artımı müşahidə edilmişdir. Belə ki, kənd təsərrüfatı müəssisələri üzrə ümumi məhsulun faktiki qiymətlərlə dəyəri 3,4 dəfə artaraq 236,0 mln. manat, o cümlədən kənd təsərrüfatı müəs-



sisələrində bitkiçilik məhsullarının faktiki qiymətlərlə dəyəri 5,9 dəfə artaraq 82,2 mln. manat, heyvandarlıq məhsullarının dəyəri həcmi 2,4 dəfə artaraq 153,8 mln. manat təşkil etmişdir.

Cədvəl 1.

Kənd təsərrüfatının ümumi məhsulunun dinamikası
(faktiki mövcud qiymətlərlə, mln. man.)

| Göstəricilər | 2005 | 2006 | 2008 | 2010 | 2011 | 2011-ci ildə 2005-ci ilə nisbətən, dəfə |
|---|---|---|---|---|---|---|
| Bütün təsərrüfat kateqoriyaları: | 1844,8 | 1969,7 | 3308,4 | 3877,7 | 4525,2 | 2,5 |
| Bitkiçilik | 988,2 | 1124,3 | 2085,0 | 1999,2 | 2339,8 | 2,4 |
| Heyvandarlıq | 856,6 | 845,4 | 1223,4 | 1878,5 | 2185,4 | 2,6 |
| Kənd təsərrüfatı müəssisələri: | 68,8 | 63,6 | 186 | 192,6 | 236,0 | 3,4 |
| Bitkiçilik | 13,9 | 15,9 | 41,1 | 60,0 | 82,2 | 5,9 |
| Heyvandarlıq | 54,9 | 47,7 | 144,9 | 132,6 | 153,8 | 2,4 |
| Fərdi sahibkar, ailə, kəndli və ev təsərrüfatları | 1776,0 | 1906,1 | 3122,4 | 3685,1 | 4289,2 | 2,4 |
| Bitkiçilik | 974,3 | 1108,4 | 2043,9 | 1939,2 | 2257,6 | 2,3 |
| Heyvandarlıq | 801,7 | 797,7 | 1078,5 | 1745,9 | 2031,6 | 2,5 |

Fərdi sahibkarlar, ailə, kəndli və ev təsərrüfatları üzrə də məhsulun faktiki qiymətlərlə dəyəri artmışdır. Belə ki, adı çəkilən təsərrüfat kateqoriyaları üzrə müqayisə olunan dövrdə faktiki qiymətlərlə ümumi məhsulun həcmi 2,4 dəfə artaraq 4289,2 mln. manat, o cümlədən bitkiçiilik məhsullarının faktiki qiymətlərlə dəyəri 2,3 dəfə artaraq 2257,6 mln. manat, heyvandarlıq məhsullarının faktiki qiymətlərlə dəyəri isə 2,5 dəfə artaraq 2031,6 mln. manat təşkil etmişdir.

Son dövrlərdə yer kürəsində baş verən ekoloji dəyişikliklər, kənd təsərrüfatı istehsalına yararlı torpaq və su resurslarının erroziya proseslərinin sürətlənməsi, habelə dünya əhalisinin artım tempi ərzaq məhsullarına tələbatın yetərincə ödənilməsində ciddi problemlərə səbəb olmuşdur. Dünya əhalisinin sayının artımının qarşılığında isə əkin sahələri getdikcə azalır, istifadə üçün yararsız hala düşür. Eroziyaya uğramış torpaqlar gigiyenik normativlərə və mikrobioloji göstəricilərə cavab vermir. Bundan başqa kənd təsərrüfatı üçün əhəmiyyət kəsb edən məhsuldar torpaqlar müxtəlif tikinti məqsədləri üçün istifadə olunur. Göründüyü kimi, ölkənin ərzaq bazarının mövcud vəziyyətindəki destruktiv tendensiyalar aqrar sahənin davamlı iqtisadi inkişafına mənfi təsir göstərir. Eyni zamanda aparılan hesablamalar gələcəkdə kənd təsərrüfatı məhsulları istehsalı tempinin əhalinin artım tempindən geri qalacağını göstərir.

Əhalinin sağlam və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi, Azərbaycanın istehlak bazarına zərərli və keyfiyyətsiz ərzaq məhsullarının daxil olmasının qarşısının alınması məqsədilə təhlükəsizliyin idarəedilməsi

sistemlərinin və nəzarət mexanizmlərinin beynəlxalq standartlara uyğunlaşdırılması əsas vəzifələrdən biridir. Ərzaq bazarının tədqiqatlarında marketinq araşdırmaları və satışların idarə edilməsi əhəmiyyətli yer tutur. Ərzaq malları ilə ticarətdə məhsulun hərəkəti sistemi sadə və istehlakçıya qədər müxtəlif zəncirlərdən ibarət mürəkkəb ola bilər.

Azərbaycan Respublikasında topdansatış ərzaq bazarlarının təşkili əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında çox böyük rol oynaya bilər. Topdansatış ərzaq bazarlarının tərkibinə əsas etibarilə ərazi əlamətləri üzrə formalaşmış bazarlar, ixtisaslaşmış topdan ərzaq bazarları və müxtəlif məhsulların reallaşdırılması ilə bağlı universal bazarlar daxil edilir.

Ərzaq məhsullarının topdansatış bazarlarının formalaşdırılması aqrar sahənin davamlı inkişafının təmin edilməsində və iqtisadi artımın sürətləndirilməsinin ən mühüm vasitəsi kimi çıxış edir. Topdansatış ərzaq bazarlarının kənd təsərrüfatı inkişafı baxımından yerinə yetirdiyi funksiyaları aşağıdakı kimi təsnifləşdirmək olar: il boyu əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təchizatının təmin olunması, kənd təsərrüfatı məhsullarının itkisinin azaldılması; kənd təsərrüfatı məhsulları üzrə bütün mal göndərənlərin rəqabətli bazara sabit çıxmaq imkanlarının təşviq edilməsi; kənd təsərrüfatı və ərzaq məhsullarının alqı-satqısı üzrə sövdələşmələrin həyata keçirilməsi üçün vahid abadlaşdırılmış yerin təyin olunması; iri şəhərlərdə, sənaye mərkəzlərində və respublikanın ayrı-ayrı bölgələrində ərzaq məhsulları təchizatının və bölgüsünün səmərəliliyinin artırılması və s.

Müəssisələrin idarə edilməsi strategiyasına məqsədli bazarın düzgün seçilməsi daxildir. Bazarın yaranması və inkişafının qiyməti ilk növbədə tələbatın genişləndirilməsi və stimullaşdırılması üzrə görülən tədbirlərdir. Beləliklə, bazarın ümumi imkanlarına baxışda məhz həmin pərakəndə satış üzrə ərzaq firmasının məqsədli bazarını seçmək lazımdır.

Şəkil 2-də əks etdirilmiş göstəricilərə əsasən Azərbaycan Respublikasında pərakəndə ticarət dövriyyəsinin həcmində ərzaq məhsullarının xüsusi çəkisinin təhlilini vermək olar. Pərakəndə ticarət dövriyəsinin həcmində ərzaq məhsullarının xüsusi çəkisi 2005-ci ilə nisbətən 2011-ci ilədək daim azalmış, qeyri-ərzaq məhsullarının xüsusi çəkisi isə müntəzəm olaraq artmışdır. Belə ki, müvafiq dövr ərzində pərakəndə ticarət dövriyəsinin həcmində ərzaq məhsullarının xüsusi çəkisi 65,2%-dən 59,5%-dək azalmışdır. Qeyri-ərzaq məhsullarının xüsusi çəkisi 2005-ci ilə nisbətən 2011-ci ildə 5,7% artaraq 34,8%-dən 40,5%-dək artmışdır.






Şək. 2.Pərakəndə ticarət dövriyəsinin həcmində ərzaq məhsullarının xüsusi çəkisi.

2005-ci ilə nisbətən 2011-ci ildə pərakəndə ticarət dövriyyəsi 3,5 dəfə artaraq 15880,3 mln. man., o cümlədən hüquqi şəxslər üzrə 2,6 dəfə artaraq 2146,7 mln. man., fiziki şəxslər üzrə 3,7 dəfə artaraq 13733,6 mln. man. təşkil etmişdir. Pərakəndə ticarət dövriyyəsinin 6336,3 mln. manatı yarmarka və kənd təsərrüfatı məhsulu bazarının payına düşür ki, bu da 2005-ci ilə nisbətən 2,9 dəfə artmışdır. Hər nəfərə düşən ticarət dövriyyəsi 3,2 dəfə artaraq 542,7 manatdan 1754,1 manata qalxmışdır. Pərakəndə ticarət dövriyyəsinin ümumi həcmində 9456,0 mln. manatlıq məhsul ərzaq mallarının payına düşür ki, bu da 3,2 dəfə təşkil edir. Müvafiq dövr ərzində topdansatış ticarət dövriyyəsi 3,9 dəfə artaraq 4853,3 manatdan 18950,0 manata çatmışdır ki, bu da müsbət haldır.

Ərzaq məhsullarının iri şəhərlərin yarmarkalarında satışı getdikcə artır. Bu da istehsalçılar və bazar ticarətçiləri üçün şəraitin yaxşı təmin edilməsindən irəli gəlir (cədvəl 2).

Cədvəl 2.

Pərakəndə ticarətdə əsas növ ərzaq məhsullarının satışı (min ton)

| Məhsullar | İllər | | | | 2011-ci ildə 2005-ci ilə nisbətən, %-lə |
|---|---|---|---|---|---|
| | 2005 | 2009 | 2010 | 2011 | |
| Ət və ət məhsulları | 162,2 | 223,7 | 231,1 | 254,5 | 156,9 |
| Süd məhsulları | 68,4 | 167,1 | 178,1 | 206,4 | 3 d. |
| Yumurta, mln.ədəd | 567,0 | 793,8 | 805,7 | 849,2 | 149,8 |
| Qənd | 181,6 | 224,1 | 227,9 | 231,8 | 127,6 |
| Bitki yağı, mln.l | 30,8 | 47,7 | 52,9 | 57,6 | 187,0 |
| Mal-qara yağı | 45,6 | 61,8 | 64,3 | 67,8 | 148,7 |
| Kartof | 340,1 | 468,4 | 478,2 | 491,6 | 144,5 |
| Tərəvəz | 696,6 | 824,0 | 826,4 | 826,5 | 118,7 |
| Pendir | 22,7 | 39,7 | 42,2 | 47,1 | 2 d. |
| Çörək, un məmulatı | 867,9 | 1071,5 | 1087,6 | 1114,8 | 128,5 |

Cədvəldən məlum olur ki, 2005-ci illə müqayisədə 2011-ci ildə pərakəndə ticarətdə bütün əsas növ ərzaq məhsullarının satışında artım müşahidə olunur ki, bu da təbii haldır. Cədvəli təhlil etsək demək olar ki, heyvandarlıq məhsullarının satışında artım daha çoxdur. Belə ki, 2005-ci illə müqayisədə 2011-ci ildə ət və ət məhsulları satışı 56,9% artaraq 162,2 min tondan 254,5 min tona, süd və süd məhsulları satışı 3 dəfə artaraq 68,4 min litrdən 206,4 min litrə, yumurta satışı 49,8% artaraq 567 mln. ədəddən 849,2 mlyn. ədədə çatmışdır.

Çörək və un məmulatlarının (yarmalar, düyü və paxlalılar daxil olmaqla, un hesabı ilə) satışı 28,5% artaraq 867,9 min tondan 1114,8 min tona, pendir satışı 2 dəfə artaraq 22,7 min tondan 47,1 min tona, qənd satışı 27,6% artaraq 181,6 min tondan 231,8 min tona, bitki yağı satışı 87% artaraq 30,8 mlyn.litrdən 57,6 mln.litrə qalxmışdır. Müqayisə olunan dövrdə kartof 44,5% artımla 491,6 min ton, tərəvəz 18,7% artımla 826,5 min ton satılmışdır.

Təhlildən aydın olur ki, keçirilən yarmarkalarda satılan məhsulların qiyməti müəyyən dərəcədə bazarda satılan ərzaq məhsullarının qiymətindən fərqlənir. Qiymətlərin səviyyəsinin bazar qiymətləri ilə müqayisədə nisbətən aşağı olması əhalinin alıcılıq qabiliyyəti asağı olan təbəqələrinin sosial maraqları baxımından mühim əhəmiyyət kəsb edir.

Dissertasiyada ərzaq bazarı subyektlərinin mənfəət məbləğinin və rentabelliyin artırılması ehtiyatlarının təhlili və hesablanması əhəmiyyətli yer tutur. Azərbaycan Respublikası üzrə kənd təsərrüfatı müəssisələri fəaliyyətinin maliyyə nəticələrini təhlil etsək görərik ki, 2005-ci illə müqayisədə 2011-ci ildə dövlət təsərrüfatlarının sayı 15,1% azalaraq 1917 vahidə enmişdir. Ondan 43 təsərrüfat fəaliyyətini dayandırmış və 156 ziyanla işləyən təsərrüfat qalmışdır. Kənd təsərrüfatı müəssisələrinin fəaliyyətindən əldə edilən ümumi gəlir 43 % artaraq 71623 min man. təşkil etmişdir. Balans gəliri isə 36,6% artaraq 36920 min manata çatmışdır.

Bütün maliyyə təsərrüfat fəaliyyəti üzrə rentabellik 2005-ci ilə nisbətən 2011-ci ildə 5,5 % artaraq 21,3 % təşkil etmişdir. Təsərrüfatlarda çalışan işçilərin sayı da 11,1 % azalaraq 18 mindən 16 minə enmişdir. Bir işçiyə düşən orta aylıq əmək haqqı isə əksinə, hər il artmaqda davam edir. Belə ki, 2005-çi ildə bir işçiyə düşən orta aylıq əmək haqqı 86 man. 20 qəpikdirsə, 2011-çi ildə bu məbləğ 146 man. 50 qəp. olmuşdur. Bu da bir işçiyə düşən orta aylıq əmək haqqının 2005-çi ilə nisbətən 2011-çi ildə 70 % artdığını göstərir. Təsərrüfatlarda çalışan işçilərə hesablanmış əmək haqqı fondu da daim artaraq 2011-ci ildə 28445 min man. təşkil etmişdir. Bu isə 2005-ci ilə



nisbətən 50,4 % artım olduğunu göstərir. Kənd təsərrüfatı məhsullarının satışından əldə edilən gəlir müqayisə olunan dövrdə 17,6% artaraq 34209 min man. olmuşdur.

Bazar münasibətlərinin formalaşması və inkişafının müasir mərhələsində islahatların nəticələri qiymətləndirilməklə ərzaq bazarının transformasiyası problemləri təxirə salınmadan həll edilməli, ərzaq ticarətinin mövcud vəziyyəti və inkişaf meylləri qiymətləndirilməli, ərzaq bazarının tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri araşdırılmalıdır.

Üçüncü fəsil **“Ərzaq bazarında iqtisadi fəallığın səmərəliliyinin yüksəldilməsi”** adlanır. Burada ərzaq bazarının tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri, ərzaq altkomplekslərinin inkişaf prioritetlərinin müəyyən edilməsi, ərzaq bazarının parametrlərinin proqnozlaşdırılması təhlil edilir.

Ölkə əhalisinin ərzaq təminatının həyata keçirilməsində başlıca prinsip ərzaq təhlükəsizliyi hesab edilir. Araşdırmalar göstərir ki, ərzaq təhlükəsizliyi yalnız və yalnız dayanıqlı kənd təsərrüfatı istehsalı hesabına təmin edilə bilər.

Ərzaq bazarının və ticarətinin tədqiqatlarında lizinq sazişlərinin iqtisadi mexanizmi xüsusi yer tutur. Aqrolizinq ASC tərəfindən kənd təsərrüfatı məhsullarının emalı və saxlanması üçün texnoloji avadanlıqlar gətirilərək məhsul istehsalçılarına təsdiq olunmuş qaydalara uyğun olaraq 20 faizi qabaqcadan ödənilməklə 10 il müddətinə lizinqə verilir: meyvə-tərəvəz saxlamaq məqsədilə soyuducu anbarlar üçün texnoloji avadanlıqlar; süd emalı zavodu üçün texnoloji avadanlıqlar; bitki yağı emal edən texnoloji avadanlıqlar; fındıq emalı üçün texnoloji avadanlıqlar; meyvə qurutma avadanlıqları; un dəyirmanı üçün texnoloji avadanlıqlar; kartof çeşidləmə avadanlıqları; ət məhsullarının şok dondurulması və saxlanması üçün texnoloji avadanlıqlar; qarışıq yem zavodu avadanlıqları; inqubator avadanlıqları və s.

Son illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər, bu sahədə həyata keçirilən tədbirlər ölkənin regionlarında emal sənayesinin sabit inkişafına zəmin yaratmışdır. Ümumiyyətlə respublika üzrə aqrar sektorun maddi-texniki bazasının gücləndirilməsi ərzaq bazarının inkişafı üçün mühüm əhəmiyyətli müəssisə və obyektlərin istifadəyə verilməsinə müsbət təsir göstərmişdir (cədvəl 3).

Məlumatların təhlili göstərir ki, yalnız son iki ildə Abşeron rayonunda duz zavodu, Cəlilabad rayonunda şərab istehsalı sexi, Beləsuvar rayonunda konserv zavodu, Lənkəran rayonunda konserv zavodu, çay və dondurma fabrikləri yaradılmış və məhsul növlərinin çeşidi xeyli artmışdır. Təkcə

2011-ci ildə Ağsu rayonunda şirə və şərab emalı zavodu, çörək zavodu, Samux rayonunda meyvə qurudulması və emalı müəssisəsi, Ağcabədi rayonunun Ağabəyli kəndində Atena" süd istehsalı və emalı kombinatı, Göyçay rayonunda meyvə və tərəvəz saxlamaq üçün soyuducu anbar, Qobustan rayonunda taxıl anbarı kompleksi istismara verilmişdir.

Azərbacan Respublikası Dövlət Statistika Komitəsinin 2011-ci ilin statistik məlumatlarına əsasən qeyd etmək olar ki, 2011-ci ildə təsərrüfatların sayı 1917 kənd təsərrüfatı müəssisələrindən 1761 gəlirlə işləyən, 156 zərərlə işləyən müəssisələrdir.

Cədvəl 3.

2011-ci ildə mühüm əhəmiyyətli müəssisə və obyektlərin istifadəyə verilməsi

| Müəssisələr | Ölçü vahidi | İstifadəyə verildiyi yer | İstifadəyə verilmiş güc |
|---|---|---|---|
| Şirə və şərab emalı zavodu:<br>meyvə şirəsi<br>şərab emalı | <br>ildə min ton<br>ildə min ton | Ağsu | <br>50,0<br>12,0 |
| Çörək zavodu | sutkada ton | Ağsu | 5,0 |
| "Atena"süd məhsulu emalı kombinatı | sutkada ton | Ağcabədi | 250,0 |
| Süd emalı zavodu | sutkada ton | Ağcabədi | 20,0 |
| Bitki yağları fabriki | ildə min ton | İmişli | 60,0 |
| Süd məhsulları emalı zavodu | sutkada ton | Tovuz | 20,0 |
| Yem fabriki | ildə min ton | İmişli | 150,0 |
| Şərab zavodu | ildə min deka litr | Şəki | 210,0 |
| Qarğıdalı emalı zavodu və qlükoza istehsalı müəssisəsi:<br>qarğıdalı emalı<br>qlükoza istehsalı | <br>gündə ton<br>gündə ton | Oğuz | <br>80,0<br>55,0 |
| Limonad istehsalı zavodu | saatda min litr | Qəbələ | 6,0 |
| Meyvə qurudulması və emalı müəssisəsi | ton | Samux | 25000,0 |
| Meyvə-tərəvəz saxlamaq üçün soyuduçu anbar | ton | Göyçay | 2000,0 |
| Taxıl Anbarı Kompleksi | ton | Qobustan | 10000,0 |

Azərbaycan Respublikasının Xaçmaz rayonunda 12.09.2003-cü il tarixində fəaliyyətə başlamış "Azərsun Holding" şirkətlər qrupuna daxil olan "Qafqaz Konserv Zavodu"nda müxtəlif qablarda tomat və pomidor məhsulları, ət konservləri, mürəbbələr, kompotlar, yaşıl noxud konservləri, hazır yeməklər, qəlyanaltılar, turşular istehsal olunur. 2007-ci ildən etibarən "Bizim Tarla" hər bir azərbaycanlının qürurla " yerli məhsul " deyə istehlak edə biləcəyi bir markadır.



2007-ci ildən fəaliyyət göstərən "Qəbələ Konserv Zavodu"nun məhsulları Rusiyaya, ABŞ-a, Kanadaya, Çexiyaya, Yunanıstana, Estoniyaya, Ukraynaya, Belarusiyaya, Qazaxıstana, Gürcüstana, Türkmənistana ixrac edilir. 2007-ci ildə yaradılan "Jalə" ticarət markası təqdim olunduğu gündən ölkənin bir nömrəli brendinə çevrilmişdir.

Tədqiqatlar göstərir ki, kənd təsərrüfatında 2011-ci ildə əsas kapitala yönəldilmiş bütün vəsaitin 437,3 mln. man. kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsinin inkişafına sərf edilmişdir. İri və orta müəssisələr tərəfindən əsas kapitala yönəldilmiş vəsait 411,9 mln. man, kiçik müəssisələr tərəfindən əsas kapitala yönəldilmiş vəsait 25410,1 min man. təşkil etmişdir. 2011-ci ildə ölkədə kənd təsərrüfatının inkişafına bütün maliyyə mənbələri hesabına 2005-ci illə müqayisədə 396,6 mln. man. çox investisiya yönəldilmiş, əsas kapitala qoyulmuş investisiyaların ümumi məbləğində onun xüsusi çəkisi 0,7 %-dən 3,4%-dək yüksəlmişdir.

Kənd təsərrüfatı sahələri ilə emal sənayesi sahələrinin balanslaşdırılmış qaydada inkişaf etdirilməsi təsərrüfatçılıq formalarının inkişaf etdirilməsinə istehsal, emal, xidmət, satış və s. sahələr arasında kooperasiya və inteqrasiya əlaqələrinin inkişaf etdirilməsinə də müsbət təsirini göstərəcəkdir. Ət emalı müəssisələri qida sənayesi müəssisələrində xüsusi əhəmiyyətə malikdir. Ət emalı müəssisələrinin sayı son on il ərzində 1,1 % azalmışdır. Bu sahənin inkişaf etdirilməsinə diqqət və qayğını artırmaq çox vacibdir. Kənd təsərrüfatında ət istehsalının 41,4%-in yerləşdiyi Aran və Dağlıq Şirvan iqtisadi rayonlarında cəmi emal müəssisələrinin 22,2%-i yerləşir. Respublika üzrə ət istehsalının 13,1%-ni təşkil etdiyi Gəncə-Qazax iqtisadi rayonunda isə emal müəssisələrinin cəmi 7,6%-i düşür ki, bu da ət və ət məhsullarının mövcud itkilərinin artmasına, istehsal olunan məhsulların keyfiyyətinin aşağı düşməsinə öz təsirini göstərməyə bilməz. Abşeron iqtisadi rayonunda istehsalın cəmi 3,6%-nin yerləşməsinə baxmayaraq, emal müəssisələrinin 50,4%-i yerləşmişdir.

Ölkə əhalisinin ən vacib ərzaq məhsulları ilə təmin edilməsində ət emalı sənayesinin inkişaf etdirilməsinin nə dərəcədə mühüm yer tutmasını nəzərə alsaq, bu fəaliyyət sahəsinin böhranlı şəraitdə fəaliyyət göstərdiyini təsəvvür etmək çətin deyildir. 2011-ci ildə iqtisadi rayonların ət istehsalı göstəricilərini təhlil etsək demək olar ki, respublika üzrə ət istehsalı (kəsilmiş çəkidə) 263 692 ton olmuşdur ki, bunun da 31,5 min tonu kənd təsərrüfatı müəssisələri və sair təşkilatların, 232,2 min tonu isə fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarının payına düşür. 2011-ci ildə iqtisadi rayonların ət istehsalı göstəricilərinə nəzər salsaq aydın olur ki, respublika üzrə ən çox ət istehsalı Aran iqtisadi rayonunun payına düşür ki,

bu da 78 273 tondur. Respublika üzrə ən az ət istehsalı Bakı şəhərinin payına düşür. Belə ki, Bakı şəhərində 2005-ci ilə nisbətən 2011-ci ildə ət istehsalı 3,7 % azalaraq 1173 tondan 1130 tona qədər enmişdir.

Beləliklə, göstəricilər toplusundan sistemli qaydada istifadə etmək yolu ilə ərzaq altkomplekslərinin səmərəliliyinin təhlil edilməsi onların ayrı-ayrı sferalarının inkişafındakı qeyri-mütənasiblikləri aşkar etməyə və həmçinin iqtisadi səmərəni yüksəltmək istiqamətində zəruri tədbirlər işlənib hazırlanmasına imkan verəcəkdir.

Heyvandarlıq məhsullarının satışından əldə edilən xalis gəlir və ya zərər səviyyəsinin təhlili göstərir ki, respublika üzrə 2005-ci ilə nisbətən 2011-ci ildə heyvandarlıq məhsullarının satışı 2,2 dəfə artmış, 987 min manatdan 2125 min manata çataraq gəlirlə yekunlaşmışdır. Müvafiq dövr ərzində bütün iqtisadi rayonlarda bu göstərici xalis gəlirlə nəticələnmişdir, xüsusilə Aran iqtisadi rayonu üzrə müsbət göstəricilər əldə edilmişdir. Belə ki, 2011-ci ildə Aran iqtisadi rayonunda heyvandarlıq məhsullarının satışından əldə edilən xalis gəlir də 2005-ci ilə nisbətən 2011-ci ildə 3,8 dəfə artaraq 222 min manatdan 846 min manata çatmışdır. Yalnız Quba-Xaçmaz iqtisadi rayonunda zərər qeydə alınmışdır. Belə ki, Quba-Xaçmaz iqtisadi rayonunda 2005-ci illə müqayisədə 2011-ci ildə heyvandarlıq məhsullarının satışı 63,3% azalaraq xalis gəlir 30 min manatdan 11 min manata düşmüşdür.

Dissertasiya işində perspektivdə ərzaq bazarının müvəffəqiyyətlə tədqiq edilməsi üçün Azərbaycan Respublikası üzrə 2015-ci ilə qədər olan dövr üçün bitkiçilik sahələrinin inkişaf proqnozu, Azərbaycan Respublikası üzrə 2015-ci ilə qədər olan dövr üçün heyvandarlıq sahələrinin inkişaf proqnozu, Azərbaycan Respublikası üzrə daxili istehsal hesabına qida məhsullarının əsas növlərinin adambaşına orta illik istehlakı proqnozu və kənd təsərrüfatı məhsullarının istehsal sahələri üzrə perspektiv həcm göstəricilərinin proqnoz qiyməti əks etdirilmişdir.

Ərzaq mallarına tələbin proqnozlaşdırılması prosesinə aşağıdakılar daxil edilə bilər: ərzaq bazarının, rəqib mühitin kompleks tədqiqatı, bazar seqmentlərinin seçilməsi; əhalinin ərzaq mallarına tələbinin və təklifinin vəziyyətinin, məcmu tələbin təhlili və tələbə təsir edən amillərin təhlili, gündəlik rasionun tərkibinin dəqiqləşdirilməsi; proqnozlaşdırma metodlarının seçilməsi, seçilmiş məhsulların istehsalına və istehlakına dair statistik məlumatların dəqiqləşdirilməsi; tələbin proqnozlaşdırılmasının həyata keçirilməsi; tələbin etibarlılığının qiymətləndirilməsi, qida rasionundakı ərzaqların yüksək reytinqə malik olması və əvəzləşdirilməməsi; əhalinin tələbinin inkişafı perspektivlərinin müəyyən edilməsi, ərzaqların sayının minimuma endirilməsi, lakin kalori-yağlılığına və əsas qida komponentlərinə görə tələbatın ən azı 80 faizini təmin etməsi; ərzaq mallarına əhalinin tələbatının inkişaf perspektivlərinin işlənib hazırlanması.



Dissertasiya işinin əsas müddəaları, əldə edilən nəticələr və əsaslandırılan təkliflər dərc olunmuş aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:


1. Ərzaq bazarının tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri. Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun elmi əsərləri. Bakı- 2008, № 4 səh.183-188.
2. Ərzaq bazarının tənzimlənməsində güzəştlərin rolu "Azərbaycan Aqrar Elmi" elmi- nəzəri jurnal, Bakı-2008, № 6. səh. 164-166.
3. Enerji qıtlığının ərzaq bazarına təsiri. Sumqayıt şəhəri və Azərbaycanın şimal regionunda energetikanın inkişafı. Respublika elmi konfransının materialları. Sumqayıt - 2008. səh.137-138.
4. Ərzaq bazarının tənzimlənməsində qiymət mexanizminin rolu. AMEA-nın Xəbərləri. İqtisadiyyat elmləri seriyası. Bakı-2009, №1, səh. 220- 223.
5. Ərzaq məhsullarına olan tələbatın yerli resurs potensialı hesabına ödənilməsi. Sənətkar, elmi-pedaqoji, metodik jurnal. Bakı-2009, № 1,səh. 48-51.
6. Влияния финансового кризиса на продовольственный рынок. Проблемы экономики, № 6, Москва-2009, ст.17-19.
7. Ekoloji təmiz məhsul istehsalı problemləri. " Azərbaycan Respublikası əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatının iqtisadi problemləri ". Respublika elmi-praktik konfransın materialları. AETKTİ və Tİ. Bakı-2009. səh. 138-141.
8. Ərzaq bazarında innovasiya fəaliyyətinin əsas subyektləri. "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri" mövzusunda Respublika elmi-praktiki konfransının materialları. Azərbaycan Milli Elmlər Akademiyası. Bakı-2010. səh.850-852.
9. İnnovasiya sahibkarlığının ərzaq bazarında təşəkkül tapması. "İnnovasiya yönümlü kənd təsərrüfatı istehsalının formalaşdırılması problemləri". Respublika elmi-praktiki konfransının materialları. AETKTİ və Tİ. Bakı-2010. səh.204-205.
10. Ərzaq bazarının marketinq fəaliyyəti. Azərbaycan Respublikasında innovasiya yönümlü iqtisadi inkişafın problemləri və onların həlli yolları mövzusunda Respublika elmi konfransının materialları. SDU və AMEA-nın İqtisadiyyat İnstitutu. Sumqayıt, 2010 səh. 124-126.

11. Aqrar-ərzaq kompleksində maliyyə münasibətləri. İnnovasiyalı kənd təsərrüfatı istehsalının formalaşdırılması problemlərinə həsr edilmiş Beynəlxalq elmi-praktik konfransın materialları. № 2. Az. ETKTİ və Tİ. Bakı-2010. səh. 46-48.
12. Aqrar-ərzaq kompleksində innovasiya proseslərinin əsas mərhələlərinin müəyyən edilməsi. Azərbaycanın müstəqilliyinin bərpasının 20 illiyinə həsr olunmuş "Ölkə iqtisadiyyatının inkişafında elmi innovasiyanın rolu". Beynəlxalq elmi-praktik konfransın materialları. AMEA Elmi İnnovasiyalar Mərkəzi. Bakı-Elm- 2011. səh.135-137.
13. Ərzaq bazarı subyektlərinin kənd təsərrüfatı istehsalının xüsusiyyətlərindən asılılığı. Aqrar sahə: müstəqilliyin 20 ilində. Beynəlxalq elmi-praktik konfransın materialları. Az. ETKTİ və Tİ. Bakı-2011. səh.410-413.
14. Postsovet məkanı ölkələrində ərzaq bazarının inkişaf xüsusiyyətləri. Sumqayıt Dövlət Universiteti. Elmi xəbərlər. Cild 8. №1. 2012. səh.94-98.
15. Aqrar-ərzaq kompleksində dövlətin innovasiya siyasətinin əsas istiqamətləri. İnnovasiya yönümlü inkişafın sosial-iqtisadi problemləri. Beynəlxalq elmi konfransın materialları. Azərbaycan Respublikası Təhsil Nazirliyi. AMEA.
SDU-50. Sumqayıt-2012. səh.166-168.
16. Ərzaq bazarında destruktiv tendensiyalar. Az. ETKTİ və Tİ-nun 50 illik yubileyinə həsr olunmuş "Aqrar iqtisadiyyatın aktual problemləri" mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı-2012. səh.377-380.
17. Азербайджан: продовольственная безопасность и развитие аграрного сектора. Российское предпринимательство. Всероссийский научно-практический журнал по экономике № 3, Москва-2012. Издательство «Креативная экономика» ст.179-183.
18. Naxçıvan MR - da kənd təsərrüfatının strukturu və dinamikası. Journal of Qafqaz University-Economics and Administration. Number 34, 2012, səh. 92-99.





## РЕЗЮМЕ

**Алиева Айгюн Гусейнали кызы**

**Трансформационные проблемы продовольственного рынка в Азербайджанской Республики**

Диссертационная работа состоит из введения, трех глав, заключение и списка использованной литературы.

Во введении обосновываются актуальность поставленной проблемы, определяются цели, задачи, теоретическая и методологическая база исследования, раскрываются научная новизна и практическая значимость диссертационной работы.

В первой главе рассматриваются «Основы трансформации продовольственного рынка на современном этапе». Здесь подробно описываются теоретико-методологические проблемы в изучении продовольственного рынка, особенности развития продовольственного рынка в странах пост - совета, мировой продовольственный рынок и особенности его развития.

Во второй главе рассматриваются «Анализ состояния свойственного продовольственному рынку Азербайджанской Республики и оценка возможностей его развития». Анализируются уровень надежности обеспечения продовольственными продуктами населения Азербайджана, проблемы продовольственного рынка, состояние и склонности развития продовольственной торговли Азербайджанской Республики.

В третьей главе рассматриваются «Пути продуктивного роста экономической активности в продовольственном рынке». Здесь анализируются направления усовершенствования уровновешивания продовольственного рынка, определение развития приоритетов продуктовых полукомплекс, прогноз параметров продовольственного рынка.

В заключительной части диссертации даются выводы, полученные в результате проведенных исследований.

**SUMMARY**
**Aliyeva Aygun Huseynali kızı**
**Problems of the transformation of the food-stuffs market in Azerbaijan Republic**

The dissertation consists of introduction, three chapters, conslusion and list of used literature.

In introduction urgency of assigned problem is substantiated, objectives, goals, theoretical and methodological basis of investigation are defined, scientific newness and practical significance of thesis are disclosed.

In the first chapter "Bases of the transformation of the food-stuffs market in the modern step" are investigated. Here is commented theoretical methodological problems of the investigation of the food-stuffs market, development features of the food-stuffs market in the post - sovet place widely countries, world food-stuffs market and its development features.

In the second chapter "Analysis of the modern state of the food-stuffs market of the Azerbaijan Republic and valuing of the development opportunities" are investigated. Reliability level of guarantee with food-stuffs of the population in Azerbaijan, problems of the food-stuffs market in the Azerbaijan Republic and modern state of the food-stuffs trade and development inclinations be analysed.

In the third chapter " Raising economic profit in the food-stuffs market" methods were investigated. Here be analysed improve directions of the regulation of the food-stuffs market, determining of the development priorities food-stuffs lower complex, prognosticating of the parameters of the food-stuffs market.

In final part of the thesis conclusions and offers gained in the result of carried out investigations are made.



Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 244, tiraj 100

Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi

Rezoqrafiya üsulu ilə cap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
---------------------------------------------------------------------------------
**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**АГРАРНЫЙ УНИВЕРСИТЕТ**
==============================================

*На правах рукописи*

**АЛИЕВА АЙГЮН ГУСЕЙНАЛИ кызы**

# ТРАНСФОРМАЦИОННЫЕ ПРОБЛЕМЫ ПРОДОВОЛЬСТВЕННОГО РЫНКА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**5312.01 – «Экономика отрасли»**

**АВТОРЕФЕРАТ**

диссертации на соискание научной степени
доктора философии по экономики

**Гянджа – 2013**